**Orucoğlu, Z**. Vətən sevgisinin ən uca zirvəsi // Respublika. - 2025. - 18 iyul. - **№ 146**. - S. 11.

Deyirlər şəhid qanı axmayan torpaqdan Vətən olmaz. Cəlilabad rayonunun Sərhədabad kəndində boya-başa çatan Hüseyn Həsənxan oğlu Qasımzadə şəhid olanda yenicən 19 yaşına qədəm qoymuşdu. Hərb tarixinə qızıl hərflərlə yazılan 44 günlük haqq savaşımızda Hüseyn kimi qeyrətli oğullar bu həqiqəti qanları bahasına bir daha sübut etdilər.

Hüseyn Qasımzadə orta məktəbi bitirəndə təmiz ürəkli, vicdanlı, olduqca qeyrətli bir gənc olaraq doğma kəndində hamı tərəfindən sevilib. Yaxşılardan görüb-götürməyi onun Vətən, xalq üçün layiqli övlad olduğunu göstərib. 2019-cu ildə ordu sıralarına həvəslə yola düşüb. Hüseyn Qasımzadə layiqli bir övlad olaraq cəbhə bölgəsində Vətən qarşısında borcunu şərəflə yerinə yetirməklə bərabər, qana susamış düşməndən qisas almağa can atıb. Əsgər yoldaşlarına da həmişə deyib ki, əgər müharibə olsa, Vətən torpağı azad olmamış silahı yerə qoymaram. Bu müqəddəs yolda son damla qanıma qədər döyüşməyə hazıram. Hüseyn sözünə əməl etmək üçün hərbi təlimlərdə fəal olub, ən ağır dəqiqələrdə belə yüksək dözüm, iradə, əzm, böyük fədakarlıq göstərib.

2020-ci ilin 27 sentyabrında əsgər Hüseynin arzuladığı məqam yetişəndə digər igid oğullarımız kimi, o, da od-alovlu səngərdə yerini alıb. Müharibə meydanında düşmənə vurduğu ağır zərbələrlə yadda qalıb. Onların hünəri sayəsində azad olunmuş Vətən torpaqlarında üçrəngli qələbə bayrağımız dalğalanıb. 6 oktyabr 2020-ci ildə Tərtər-Ağdərə bölgəsində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından əbədiyyətə qovuşub.

"Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olmasına görə" medallarına layiq görülüb...